http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 14 (1632) 31 avqust 2016 - cı il Qiyməti 50 qəpik

# 42-ci Ümumdünya Şahmat Olimpiadasının iştirakçılarına



**Hörmətli Olimpiada iştirakçıları!**

Sizi – dünyanın bütün guşələrindən Bakıya toplaşmış şahmatçıları səmimi qəlbdən salamlayır, hər birinizə möhkəm cansağlığı, müvəffəqiyyət və xoş əhval-ruhiyyə arzulayıram. Əminəm ki, ölkəmizə xas qonaqpərvərlik və idmana olan dərin hüsn-rəğbət yarışların yüksək səviyyədə keçirilməsi üçün gözəl imkanlar yaradacaqdır.

Ümumdünya Şahmat Olimpiadasının bu günlərə təsadüf etməsi həqiqətən də əlamətdar hadisədir. Rio-de-Janeyro Olimpiadasının zəngin təəssüratları ilə yaşayan Azərbaycan bu mötəbər şahmat yarışlarına böyük ruh yüksəkliyi ilə ev sahibliyi edir.

Tarix boyu Şərqlə Qərb arasında körpü rolunu oynamış ölkəmizdə qədim dövrlərdən şahmata daim böyük maraq müşahidə edilmişdir. Azərbaycan klassiklərinin əsərlərində və orta əsr miniatürlərində şahmat oyunu ilə bağlı süjetlər dolğun şəkildə öz əksini tapmışdır. Təqdirə layiqdir ki, Avropa səyyahlarının xatirələrində Azərbaycanda bu oyunun geniş yayılması və hətta qadınların belə, şahmat oynaması haqqında ətraflı məlumatlar verilmişdir.

XX əsrdə Azərbaycanda şahmatın yayılması kütləvi xarakter almış, müxtəlif səviyyəli mötəbər turnirlər keçirilməyə başlamışdır. İdmançılarımızın bu yarışlarda qazandığı uğurlar şahmatın bir idman növü kimi daha geniş vüsət almasına təkan vermişdir. Azərbaycanın bütün bölgələrində uşaq şahmat məktəblərinin fəaliyyətə başlaması ölkəmizdə şahmata göstərilən xüsusi diqqətin təzahürüdür. Həmin amillər dövlət müstəqilliyinin bərpasından sonra bizim şahmat məktəbimizin inkişafına xidmət edərək bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirmişdir.

Son illərdə şahmat üzrə dünya və Avropa miqyaslı yüksək statusa malik yarışların ölkəmizin paytaxtı ilə yanaşı bölgələrində də baş tutması Azərbaycanın dünyanın şahmat mərkəzlərindən birinə çevrilməsi yolunda atılmış mühüm addımdır. İnanıram ki, bu Şahmat Olimpiadası da ölkəmizdə bu intellektual oyunun təbliğinə öz layiqli töhfəsini verəcəkdir.

Ümidvaram ki, 42-ci Ümumdünya Şahmat Olimpiadası bu qədim oyunun tarixinə yeni uğurlu səhifələr yazacaq, ölkələr arasında sülhün və əmin-amanlığın bərqərar olmasına xidmət göstərəcəkdir.

**Ən xoş arzularla**

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 avqust 2016-cı il.

## Bu sayımızda


**Rektor yeni qəbul olunan tələbələrin qeydiyyat prosesini izləyib** 2



**700 bal toplayan üç tələbə ATU-nu seçib** 3

**Əməkdaşlarımız Təhsil Nazirliyində görüşə qatılıblar** 2

**Mənalı istirahətimizin ünvanı - «TƏBİB»** 4-5



**Nuru Bayramov: «Sirrozu artıq sağala bilən xəstəlik kimi qəbul edirik»** 6

# Rektor yeni qəbul olunan tələbələrin qeydiyyat prosesini izləyib

**❍ Avqustun 15-dən etibarən Azərbaycan Tibb Universitetinin (ATU) tələbəsi adını qazanmış abituriyentlərin qeydiyyat prosesinə start verilib.**

Sənəd qəbulunun daha asan və rəvan keçməsi üçün universitet rəhbərliyi tərəfindən bütün zəruri tədbirlər görülüb.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli qeydiyyat prosesinin gedişi ilə tanış olub, sənəd qəbuluna gələn abituriyentlər və onların valideynləri ilə görüşüb, proseslə bağlı onların fikir və təkliflərini dinləyib. Abituriyentlərin əksəriyyəti qəbulla əlaqədar hansısa narahatlığın olmadığını bildiriblər.





Qeyd olunub ki, ATU-da hər bir fakültənin qeydiyyat prosesi ayrılıqda aparıldığından anlaşılmazlıq və sıxlıq yaranmayıb. Belə ki, qeydiyyat üçün lazım olan sənədlərin siyahısı, bəzilərinin isə hətta forması əvvəlcədən ATU-nun internet saytı, həmçinin rəsmi Facebook səhifəsində yerləşdirilib. Gənclər qeydiyyatla bağlı suallarını ATU-nun Facebook səhifəsinə ünvanlayıblar. Eyni zamanda, abituriyentlər universitetdə qeydiyyatla bağlı yaradılmış **"Qaynar Xətt"in** telefon nömrəsi ilə də əlaqə saxlamaqla onları maraqlandıran məsələlərə aydınlıq gətiriblər.



# Əməkdaşlarımız Təhsil Nazirliyində görüşə qatılıblar

**◆ «Sağlam Təhsil - Sağlam Millət» layihəsinin işçi qrupunun üzvləri ilə müzakirə aparılıb.**

**Avqust ayının 8-də Təhsil Nazirliyində «Sağlam Təhsil - Sağlam Millət» layihəsinin işçi qrupunun üzvləri, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti və "Azərbaycan" Universitetinin əməkdaşları ilə görüş keçirilib.**



Görüşün məqsədi pedaqoji kadrların hazırlanmasının Sağlam Təhsil prinsiplərinə cavab verməsi üçün tədbirlər planının ilkin müzakirəsi olub. Görüşdə Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov, Universitetin elmi katibi, STSM layihəsinin tibbi-gigiyenik blokunun rəhbəri, professor Hüseyn Qabulov, Tədris-metodik innovasiyalar şöbəsinin müdiri, professor Akif Qurbanov, Tibbi profilaktika fakültəsinin dekanı, dosent Aydın Məmmədov, uşaq və yeniyetmələrin gigiyenası kafedrasının dosenti Nigar Süleymanzdə, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tədris-metodika şöbəsinin müdiri Sənan Əliyev və universitetin əməkdaşı Şəhla Əhmədova, "Azərbaycan" Universitetinin rektoru Fərid Əhmədov, Milli Təhsil Texnologiyaları Mərkəzinin sədri Şamil Süleymanlı, Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin, Pilot layihələrlə İş sektorunun aparıcı məsləhətçisi Afət Süleymanova, "Sağlam Təhsil-Sağlam Millət" layihəsinin koordinatoru Nigar Şahhüseynbəyova, layihənin Psixologiya blokunun rəhbəri, Psixologiya üzrə fəlsəfə doktoru Aynur Bünyatova, Gender blokunun rəhbəri Şəhla İsmayıl iştirak ediblər.

Təhsil Nazirlyinin "Sağlam Təhsil-Sağlam Millət" layihəsi çərçivəsində üç il ərzində görülmüş işlər, aparılan tədqiqatlar və gəlinən nəticələrdən danışılıb. Layihənin tətbiqi zamanı rast gəlinən problemlər diqqətə çatdırılaraq, bu sırada pedaqoji kadrların hazırlığında mövcud boşluqlardan söz açılıb. Təhsil alanların sağlamlığının qorunması və təlim nailiyyətinin yüksəldilməsinə nail olmaq üçün müəllim hazırlığına dair STSM layihəsinin işçi qrupu tərəfindən təkliflər verilib. Azərbaycan Dövlət Pedaqoji Universiteti və Azərbaycan Tibb Universitetinin əməkdaşlığı və layihə ilə birgə fəaliyyət imkanları müzakirə edilib. Növbəti mərhələdə ayrı-ayrı məsələlər üzrə birgə fəaliyyət planının işlənib hazırlanması nəzərdə tutulur.

# Azərbaycan Tibb Universitetində yeni təyinatlar olub

## Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin müvafiq əmri ilə dosent Rauf Bəylərov universitetin elmi işlər üzrə prorektoru, dosent Könül Xəlilova isə Tədris Terapevdik Klinikanın direktoru vəzifəsinə təyin ediliblər



**Bəylərov Rauf Oruc oğlu 1961-ci ildə Bakı şəhərində ziyalı ailəsində doğulub.**

Orta təhsilini 1968-1978-ci illərdə 23 saylı orta məktəbdə alıb. 1978-1979-cu illərdə Respublika Uroloji Xəstəxanasında sanitar vəzifəsində çalışıb. 1979-cu ildə Azərbaycan Tibb İnstitutunun (indiki ATU) pediatriya fakültəsinə qəbul olub. Təhsil müddətində 2 saylı Şəhər Xəstəxanasının reanimasiya şöbəsində orta tibb işçisi işləyən Rauf Bəylərov 1985-ci ildə universiteti həkim-pediatr diplomu ilə bitirib və 1985-1986-cı illərdə Bakı şəhər Təcili və Təxirəsalınmaz Yardım Stansiyasında internatura keçib.

1986-1989-cı illərdə Səhiyyə Nazirliyinin göndərişi ilə Əli-Bayramlı (indiki Şirvan) şəhərində təcili yardım stansiyasında həkim-pediatr kimi çalışıb. 1989-1992-ci illərdə Rusiyanın Moskva şəhərində Elmi-Tədqiqat Pediatriya İnstitutunun Nefroloji Mərkəzində aspiranturada oxuyub və müvəffəqiyyətlə dissertasiya müdafiə edərək ibb elmləri namizədi alimlik dərəcəsi alıb.

1993-cü ildə Azərbaycan Tibb Universitetinin uşaq xəstəliklərinin propedevtikası kafedrasında assistent vəzifəsinə seçilib. 2007-ci ildən həmin kafedranın dosentidir.

BMT-nin Uşaq Fondu (UNISEF), Dünya Səhiyyə Təşkilatı və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təşkilati dəstəyi ilə həyata keçirilən proqramlarda, eyni zamanda qeyri-hökumət təşkilatlarının tibbi layihələrində yaxından iştirak edib.

Ümumdünyü Böyrək Gününə həsr olunmuş elmi-praktik konfranslarda, Azərbaycan-Türkiyə nefroloqlarının I, II elmi kofranslarında çıxışları maraqla qarşılanıb. Türkdilli ölkələrin pediatrlarının konqres və konfranslarında ölkəmizi dəfələrlə təmsil edib.

Səhiyyə Nazirliyinin təşkilati dəstəyi ilə 10 pilot rayonda həyata keçirilən qrant layihələrinin rəhbəri olub.

Dünyanın müxtəlif ölkələrində tibbin aktual məsələlərinə həsr olunmuş təlim kurslarına qatılaraq beynəlxalq səviyyəli diplom və sertifikatlara layiq görülüb.

**Könül Dəmir qızı Xəlilova 1949-cu ildə Bakı şəhərində anadan olub. 1966-cı ildə 150 saylı orta məktəbi qızıl medalla bitirib.**



1966-1972-ci illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsil alıb.

Tələbəlik illərində elmə göstərdiyi marağa və öz fəaliyyətində seçildiyinə görə, 1972-ci ildə Azərbaycan Tibb İnstitutunun hospital terapiya kafedrasında baş laborant vəzifəsinə təyin olunub.

Həmin ildə (1972) Səhiyyə Nazirliyinin müvafiq göndərişinə əsasən Moskva şəhəri Ümumittifaq Kardiologiya İnstitutunun "Ürək çatışmazlığı və funksional diaqnostika" şöbələrində 2 ay müddətində təkmilləşdirmə kursunda olub.

1975-ci ildə Azərbaycan Tibb İnstitutunun hospital terapiya kafedrasında assistent vəzifəsinə seçilib, 1986-cı ildə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Daxili xəstəliklər kafedrasında 2 aylıq təkmilləşdirmə kursuna qatılıb.

1989-cu ildə ürək çatışmazlığı olan xəstələrdə "Ürək qlikozidlərinin və periferik vazodilatatorların tətbiqi" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi alıb.

1989-cu ildə I daxili xəstəliklər kafedrasının dosenti seçilib. Kafedranın tədris və elmi işlərində fəal iştirakına görə fərqlənib, sonrakı illərdə I daxili xəstəliklər kafedrasının tədris-hissə müdiri vəzifəsinə təyin edilib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Həkimlərin Attestasiya Komissiyasının katibi olub.

100-ə yaxın elmi məqalənin müəllifidir.

Son illərdə I daxili xəstəliklər və reanimatologiya kafedrasında yerinə yetirilən "Ürəyin işemik xəstəliyinin (ÜİX) diaqnostikası, müasir müayinə və müalicə üsullarının tətbiqin"ə dair elmi tədqiqatlarda yaxından iştirak edib.

Universitetin daxili xəstəliklər kafedrasında tədris planlarının tərtib edilməsində də yaxından iştirak edir.

**ATU-nun mətbuat xidməti**

# 700 bal toplayan üç tələbə ATU-nu seçib

**◆ Bu il qəbul imtahanlarında 6 abituriyent maksimum nəticə göstərib. Azərbaycanın müxtəlif bölgələrindən olan gənclər test suallarının hamısına düzgün cavab verərək 700 bal toplayıblar. Bu gənclərdən üçü Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsində təhsil alacaq. Onları təqdim edirik:**



### İsmayılova Səbinə Emil qızı

1999-cu ildə Qazax rayonunun Canallı kəndində anadan olub. 15 sentyabr 2005-ci ildə Qazax rayonu Canallı kənd tam orta məktəbinin I sinfinə gedib. IX sinifdə riyaziyyat üzrə fənn olimpiadasında I yeri, X sinifdə isə Xocalı faciəsinə aid inşa müsabiqəsində rayon üzrə II yeri tutub. Bu il keçirilən qəbul imtahanlarında ən yüksək – 700 bal toplayaraq müəllimlərinin və qohum-əqrəbasının sevincinə səbəb olub.

Özündən kiçik 2 qardaşı var. Anası Azərbaycan dili və ədəbiyyatı müəllimidir. Atası isə hərbi mühəndisdir, hal-hazırda təqaüdçüdür.

### Zülfüqarov Orxan Əzim oğlu



1999-cu ildə Gədəbəy rayonunda anadan olub. 2006-cı ildə Şəmkir rayonunun Çinarlı qəsəbə 2 saylı orta məktəbinin I sinfinə gedib. Orta məktəbi əla qiymətlərlə başa vurub. Bu il keçirilən qəbul imtahanlarında 700 bal toplayıb. Onun bu cür müvəffəqiyyət qazanmasında müəllimləri ilə yanaşı, riyaziyyat müəllimi olan atası Əzim müəllimin də müstəsna xidmətləri olub. Atası Əzim Zülfüqarovun bildirdiyinə görə, Orxanın bu cür yüksək nailiyyət əldə edəcəyinə əvvəlcədən inanıb. Oğlunun bu uğuruna sevinən ata gələcəkdə onun yaxşı həkim olacağına və insanların sağlamlığı keşiyində lazımi səviyyədə dayanacağına böyük ümid bəsləyir.

Anası evdar qadındır. Bacısı Gəncə Tibb Kollecinin tələbəsi, qardaşı VI sinif şagirdidir.



### Lətifov Ağalətif İsaq oğlu

1999-cu ildə İsmayıllı rayonunun Cülyan kəndində anadan olub. 2005-cı ildə İsmayıllı şəhər 5 nömrəli tam orta məktəbin I sinfinə gedib. Təhsili, davranışı, təlim-tərbiyəsi ilə sinif yoldaşlarından fərqlənib. Həmişə kitabları özünə dost bilib. Təhsil aldığı məktəbdə riyaziyyat müəllimi işləyən atası İsaq müəllim oğlunun təhsilini həmişə diqqət mərkəzində saxlayıb. 2015-ci ildə fənn olimpiadalarının final turunda biologiya fənni üzrə III yeri tutaraq bürünc medala layiq görülüb. 2016-cı ildə həmin məktəbi qızıl medalla bitirib. Ali məktəblərə qəbul imtahanlarında 700 bal toplayaraq Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olub.

Ailəsi 4 nəfərdən ibarətdir. Anası evdar qadın, bacısı Gülbəniz ADPU-nun III kurs tələbəsidir.



# Onlar yüksək balla universitetimizə daxil olublar

### İbrahimova Qumral Zəfər qızı



1999-cu il aprelin 24-də Bakıda anadan olub. 2005-ci ildə Bakıda Tahir Hacıyev adına 252 saylı orta məktəbin 1-ci sinfinə daxil olub. Həmçinin 2 saylı Ağdam musiqi məktəbində fortepiano dərsləri alıb. Dəfələrlə musiqi müsabiqələrində iştirak edərək, məktəbi layiqincə təmsil edib. 2009-cu ildə yüksək nəticə ilə Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinə qəbul olunub. Oxuduğu müddətdə liseyin ictimai işlərində və dərslərdə qazandığı müvəffəqiyyətə görə müdiriyyət tərəfindən təltiflərə layiq görülüb. 2015 və 2016-cı illərdə biologiya fənni üzrə Respublika fənn olimpiadalarına qatılaraq 3-cü yeri tutub. 2016-cı il iyunun 14-də Liseyi qızıl medalla bitirib və 661 bal toplayaraq Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olub.

Ötən il haqq dünyasına qovuşan atası Zəfər İbrahimov da həkim imiş. 1987-ci ildə ATU-nu qırmızı diplomla başa vurubmuş. Peşəsini çox sevirmiş və qızını da özü kimi həkim görmək istəyirmiş. Çox təəssüf ki, vaxtsız əcəl ataya qızının ATU-ya qəbul olmasının sevincini yaşamağa imkan vermədi. Yəqin qızının yüksək balla universitetə daxil olmasına ruhu şad olar.

Qumral asudə vaxtlarında piano ifa etməyi, rəsm çəkməyi, kitab oxumağı sevir. Arzusu atası kimi peşəkar həkim olub, insanların sağlamlığının keşiyində durmaqdır.

### Əsgərova Zeynəb Mübariz qızı



1998-ci il avqustun 2-də Bakıda anadan olub. 2001-2005-ci illərdə "Dalğa" uşaq bağçasına gedib. 2005-ci ildə Bakıda Məzahir Rüstəmov adına 32 saylı tam orta məktəbə daxil olub. Burada təhsil aldığı müddətdə bir çox fənn olimpiadalarında iştirak edərək yerlər tutub. 2013-cü ildə Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyində keçirilən qəbul imtahanında iştirak edərək yüksək göstərici ilə ora qəbul olub. 11-ci sinifdə kimya fənni üzrə olimpiadada iştirak edərək final mərhələsinə qədər gəlməyi bacarıb. 2016-cı ildə keçirilən qəbul imtahanında 691 bal toplayaraq ATU-ya qəbul olunub və Prezident Təqaüdünə layiq görülüb. Müvəffəqiyyət qazanmaqda Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin müdiriyyətinə, müəllim kollektivinə və valideynlərinə minnətdarlığını bildirir. Arzusu ATU-da təhsilini davam etdirib, savadlı həkim olmaqdır.



### Həsənli Nəzrin Mürvət qızı

1999-cu ildə Bakıda anadan olub. 62 saylı tam orta məktəbi bu il bitirib. Qəbul imtahanlarında 642 bal toplayaraq Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olub. Bir vaxtlar anasının təhsil aldığı ali məktəbdə oxumaqdan qürur duyan Nəzrin valideynlərinin və müəllimlərinin etimadını doğruldacağına inanır. O, ali məktəbdə də əla qiymətlərlə oxuyaraq müqəddəs həkimlik peşəsinin sirlərinə yiyələnmək və insanların sağlamlığı keşiyində ləyaqətlə dayanmaq əzmindədir.

### Soltanlı Nihad



1999-cu ildə Sumqayıtda anadan olub. 5 nəfərlik ailə üzvü ilə hazırda Bakıda yaşayır. Asudə vaxtlarında idmanla (cüdo) məşğul olur. 2014-cü ildə dil və mədəniyyət festivalının mükafatına layiq görülüb. Yeni layihələr qurmaq, fikir yürütməyi sevir. Bu bacarığına görə beynəlxalq İNEPO olimpiadasında ölkəmizi təmsil edən şagirdlərdən biri olub. Bu il 680 bal toplayaraq ATU-ya qəbul olub. Ən böyük arzusu ehtiyacı olan ölkələrdə insanlara təmənnasız xidmət etməkdir.

# "Elektron Təhsil" Respublika müsabiqəsi keçiriləcək

**Təhsil naziri Mikayıl Cabbarov təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində "Elektron Təhsil" Respublika müsabiqəsinin keçirilməsi barədə əmr imzalayıb.**



Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, əmrə əsasən təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində "Müəllim", "Şagird" və "Məktəb" istiqamətləri üzrə "Elektron Təhsil" Respublika müsabiqəsi keçiriləcək.

Müsabiqə ilə bağlı nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etmək Təşkilat Komitəsinə tapşırılıb.

# Mənalı istirahətimizin

**◆ Hər il Azərbaycan Tibb Universitetinin (ATU) əməkdaşları Nabranda yerləşən "Təbib" İstirahət Düşərgəsində istirahət etmək üçün yayın gəlməsini səbirsizliklə gözləyirlər. Bu guşədə insanların istirahəti üçün təbiətin verdiyi ideal şərait mövcuddur. Belə ki, qızmar yay günündə hündür ağacların kölgəsi, Xəzərdən əsən meh, dəniz, 40 metr dərinlkdən çıxan müalicəvi əhəmiyyətli sərin su istirahəti şərtləndirən əsas amillərdən hesab olunur.**




ATU-nun əməkdaşlarının necə istirahət etmələri ilə yaxından tanış olmaq üçün "Təbib" İstirahət düşərgəsinə yollanırıq.

Diqqətimizi ilk çəkən düşərgədə istirahət edənlərin bir-birinə olan isti münasibəti və burada hökm sürən səliqə-səhman oldu. Mehribançılığa səbəb isə onların neçə illərdir bu məkanı özlərinə istirahət guşəsi seçmələri və bir-birilərini tanımaları idi. Quşların və cırcıramaların səsi aləmi başına götürmüşdü. Hiss olunurdu ki, bu da istirahət edənlərdə xoş ovqat yaradıb. İstirahət düşərgəsinin rəisi Samir Yaqubov düşərgəylə bağlı bizə ümumi məlumat verdi, ərazidə aparılan yenidənqurma işlərindən danışdı. Bildirdi ki, otaqların hamısı istirahət üçün hazır vəziyyətdədir. Onun sözlərindən məlum oldu ki, 7 otağın döşəməsi dəyişdirilib, ərazidə 6 ədəd istirahət köşkü quraşdırılıb. Burada istirahət 3 mərhələdə təşkil olunub və hər mərhələdə 216 nəfər istirahət edir. Həm ərazidə, həm də dənizdə istirahətçilərin təhlükəsizliyinə ciddi nəzarət olunur. Uşaqların mənalı istirahətləri üçün də burada lazımi şərait yaradılıb.

Sonra düşərgənin müvəqqəti sakinlərinin fikirlərini öyrənmək üçün ayrı-ayrılıqda onlara yaxınlaşırıq.



## "Hər kəs öz işinin öhdəsindən layiqincə gəlir"

**Azərbaycan dili kafedrasının dosenti Xuraman Məhərrəmova hər il ailəvi "Təbib"ə istirahətə gəldiklərini bildirir:** "Burada bizə göstərilən yüksək səviyyədə xidmət həmişə məni özünə cəlb edib. İstirahətimiz yaxşı keçib və indi də heç bir narazılı-



ğımız yoxdur. Bizə xidmət göstərənlərdən və edilən xidmətdən çox razıyıq. Hər kəs öz öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirir. Yeməklərə nəzarət edən Xətai Novruzov çalışqan və zəhmətkeşdir. Yeməklər keyfiyyətlidir, demək olar ki, evdə hazırladığımız kimidir. Bir gün ət, o biri gün isə toyuqdan hazırlanmış yeməklər verilir. Bu ildən etibarən düşərgəyə rəhbərlik edən Samir müəllim də daim necə istirahət etməyimizlə maraqlanır, etdiyimiz təklifləri həmişə nəzərə alır. Mənalı istirahətimiz üçün universitetimizin rektoru, professor Gəray Gəraybəyliyə, Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımova dərin minnətdarlığımı bildirirəm. Cahangir müəllim həmişə hər birimizdən ayrı-ayrılıqda hal-əhval tutub, təkliflərimizi dinləyib. Planlaşdırırıq ki, növbəti ildə də başqa yerə yox, məhz bura istirahətə gələk.

## "Düşərgədə internet şəbəkəsinin olmasını istərdik"

**Azər Bağırov (İdman kafedrasının baş müəllimi):**

– Hazırda "Təbib" istirahət düşərgəsində şərait əvvəlki illərə nisbətən daha da yaxşılaşıb. Düşərgə gündən-gündən gözəlləşir və yeniləşir. İstirahət edənlərin asudə vaxtlarının səmərəli keçməsi üçün bir sıra yüksək səviyyəli mədəni və idman tədbirləri təşkil edirik. Bu il kəndirbazlar dəvət olunmuşdu. Onlar bir sıra çətin nömrələr nümayiş etdirərək izləyicilərin diqqətini özlərinə çəkə bildilər. Ötən ildən etibarən idman yarışlarının sırasına atıcılıq yarışını da əlavə etmişik. Bu da böyük maraqla qarşılanıb. Bu yarışda düşərgənin rəisi Samir Yaqubov da iştirak etdi və məharətini uğurla göstərə bildi. Voleybol, tennis, dama, şahmat, domino, nərd yarışları da təşkil edirik. Ümumi fiziki hazırlıq yarışları keçiririk. Bu yarış vasitəsi ilə valideynlər uşaqlarının fiziki baxımdan hansı səviyyədə olmasının şahidi olurlar. Yeniyetmələr üçün gündə iki dəfə həm dəniz kənarında, həm də idman meydançalarında idman məşğələləri təşkil olunur. Gündə iki dəfə çimərlikdə insanların təhlükəsizliyinə nəzarət edirik. Kənar şəxslərin əraziyə daxil olmasına imkan verilmir.

Rəqs müsabiqəsi də elan etmişik. Yaxşı rəqs edənlərə mükafatlar təqdim olunacaq.

Sonda bir təklifim də var. İstərdik ki, düşərgədə internet şəbəkəsi olsun və istirahət edənlər dünyada və ölkəmizdə baş verən hadisələrlə bağlı informasiya ilə yaxından tanış ola bilsinlər.

## "İstirahət köşklərinin sayını artırmağı istərdim"



**Məhəmməd Paşayev (İctimai fənnlər kafedrasının dosenti):**

– Neçə ildir "Təbib" İstirahət düşərgəsində ailəvi istirahət etmişəm və bu il də edirəm. Bu il düşərgəyə Samir Yaqubov yeni rəis təyin olunub. O, olduqca çalışqan, işgüzar və işini bilən adamdır. Onu neçə ildir tanıyıram. Burada müxtəlif vəzifələrdə çalışıb və həmişə bizimlə mehriban olub. Ərazidə səliqə-səhmana, təmizliyə ciddi riayət olunur. Xidmət otaqlarının, istirahət guşələrinin təmizliyinə diqqət yetirilir, ərazi vaxtaşırı xüsusi məhlullarla yuyulur. Gündə 3 dəfə yemək verilir və xörəklər keyfiyyəti ilə seçilir. Həmçinin menyuya ət, toyuq, pomidor, badımcan və bibər kababları da daxil edilir.

Mənalı istirahətimizin təşkili üçün universitet rəhbərliyinə, hörmətli rektorumuz Gəray Gəraybəyliyə, Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir müəllimə dərin minnətdarlığımı bildirirəm. Cahangir müəllim həmişə düşərgəyə baş çəkir, istirahəti necə keçirməyimizlə maraqlanır, təklif və rəylərimizi nəzərə alır. İstərdim ki, növbəti ildə burada istirahət köşklərinin sayı artırılsın.

## "Uşaqlar da razıdır"

**Ulduz Tahirova (aparıcı mühasib):**

– İki ildir ki, ailəvi burada istirahət edirik. Ötən il də gəlmişdik, çox xoşumuza gəldi. Bu il də qərar verdik ki, yenə burada istirahət edək. Xidmət əladır. Yeməklərin keyfiyyəti bizi qane edir. Bu il ötən ildən müsbət mənada fərqlidir. Hesab edirəm ki, ildən-ilə xidmətin keyfiyyəti daha yaxşı olacaq. Nəvələrim də razıdır. Uşaqların əylənməsi, asudə vaxtlarını səmərəli keçirmələri üçün burada hər cür şərait yaradılıb. Axşamlar diskoteka təşkil olunur.

**Fatimə Bağırova:**

– 14 yaşım var. Bizim üçün maraqlı yarışlar keçirilir. Dənizdə çimirik. Dama, atıcılıq, domino yarışlarında iştirak etmişəm. Diskotekada həmyaşıdlarımla rəqs edirəm. Keçən il 1-ci yer tutdum. Ancaq bu il iştirak etdiyim yarışlarda hələ ki, yer tuta bilməmişəm. Çalışacağam ki, o biri yarışlarda qalib olum.

*Düşərgədə dama yarışının qaliblərinin mükafatlandırılma mərasimi keçirildi. Azər*



*Bağırov, Samir Yaqubov və Ulduz Tahirova mükafatları qaliblərə təqdim etdilər.*

*Nərmin Adgözəlli I, Nərgiz Fətullayeva II, Kənan Yusifli isə III yerə layiq görülərək medallarla təltif olundular.*

*Mükafatlandırılma mərasimi Dövlət Himnimizin sədaları altında bağlı elan edildi.*



# ünvanı - «TƏBİB»

**Sahib Əhmədov (Ümumi gigiyena kafedrasının dosenti):**

– 10 ildir burada istirahət edirəm. Xidmət yaxşı təşkil olunub ki, bura ardıcıl ailəvi istirahətə gəlirik. Mövcud şərait nəvələrimin də xoşuna gəlir. İldən-ilə şəraitin yaxşılaşdığının şahidi oluram. Bu il də yeniliklər var.

Hörmətli rektorumuz Gəray Gəraybəylinin tapşırığı ilə məsul şəxslər düşərgəyə gəlir, ümumi vəziyyətlə tanış olurlar. Ərazidə müasir tipli yeməkxana inşa edilməsi planlaşdırılır. Bu da olduqca yaxşı haldır və gələcəkdə xidmətin keyfiyyətinin daha da yaxşı olacağından xəbər verir.



Mən həm də Həmkarlar İttifaqı Komitəsinin üzvü və qida üzrə mütəxəssis olduğuma görə, hər şeyə fikir verirəm. Qidalar keyfiyyətlidir və ərazidəki təmizlikdən, səliqə-səhmandan razıyıq.

*Ezamiyyətdə olduğumuz müddətdə ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov da düşərgəyə gəlmişdi. O, əməkdaşların necə istirahət etməsi, qidaların hansı şəraitdə saxlanılması, yeməklərin necə hazırlanması və keyfiyyətləri ilə ətraflı şəkildə maraqlanırdı.*

*İstirahətçilərlə görüşən Cahangir müəllim onlara universitetin rektoru, professor Gəray Gəraybəylinin salamını çatdırdı.*

*İstirahət edənlərin əksəriyyəti yaradılan şəraitdən razılıqlarını bildirdilər. Mövcud problemlərdən də söz açıldı və təkliflər səsləndirildi. Onu da qeyd edək ki, Cahangir müəllim həm hazırlıq işlərinin görüldüyü müddətdə, həm də istirahət mövsümündə düşərgəyə vaxtaşırı baş çəkir, rektorun tapşırıqlarının icrasına şəxsən nəzarət edir.*

**Kəmalə Zülfiqarova (Onkoloji Klinikanın baş tibb bacısı):**

– Ailəmizlə birgə 8 ildir burada istirahət edirik. Əsas odur ki, bura çox rahat və sakitdir. Heç bir yerdə bu ödənişlə dincəlmək və istirahət etmək olmur. Təsəvvür edin, gündəlik bir nəfər üçün istirahətin qiyməti 3 manat 35 qəpikdir. Hər yer səliqəli, təmizdir. Ərazidə heç bir məişət tullantısına rast gəlmək mümkün deyil. İdman müəllimimiz də mənalı tədbirlər keçirir.

**Əmrah Əhmədov (I Cərrahi xəstəliklər kafedrasının assistenti):**

– 5 ildir istirahət üçün bu məkanı seçirəm. Burada istirahət üçün normal şərait var. Hər şey yaxşıdır. İstirahət köşklərinin quraşdırılması lap yerinə düşüb.

## "Vanna otaqlarının olmamasından əziyyət çəkirik"

**Elmira Abbasova (Ümumi gigiyena kafedrasının dosenti):**

– Burada istirahət normaldır. Xidmətdən və münasibətdən çox razıyam. Amma vanna otaqlarının olmaması bizim əsas problemlərimizdən biridir. Buna görə əziyyət çəkməli oluruq. Çox istərdik ki, bu problem növbəti illər ərzində həll olunsun.

Cahangir Qasımov rektora məruzə olunan bu problemin növbəti ildə aradan qaldırılacağını qeyd etdi.



**Qabil Hüseynov (Hərbi tibb fakültəsinin hərbi həkim ixtisası kursunun rəisi):**

– Mən də hər il burada istirahət edənlərdənəm. Əvvəlki illərə nisbətən müsbətə doğru fərq hiss olunur. İstirahət yüksək səviyyədə təşkil olunub. Əvvəllər axşam yeməyi verilmirdi. İndi axşamlar da yemək verilir.

## "Oğlum burada tanış olub, ailə qurubdur"

**Gülnarə Qarayeva (Əsaslı kitabxananın şöbə müdiri):**

– 6 ildir burada istirahət edirik. Uşaqlar özlərinə yeni dostlar tapıblar. Hətta ailə quranlar da olub. Şəxsən mənim oğlumun biri burada tanış olub, ailə qurub. Buranın gözəl ənənələri var. Çox istərdim ki, bu ənənələr davamlı olsun.

**Sevinc Cəfərova (Xarici dillər kafedrasının ingilis dili müəllimi):**

– İstirahətimiz çox gözəl keçir. Şərait yaxşıdır. 8 ildir burada istirahət edirik. Yeməkdən və şəraitdən, rəhbərlikdən və xidmətlərdən razıyıq. Cahangir müəllim, siz də sağ olun. Hər il bizə baş çəkir, istirahətimizin necə keçməsi ilə maraqlanırsınız. Biz həmişə universitet rəhbərliyinin qayğısını hiss etmişik.



**Şəhla Məmmədova:**

– 12 ildir ailəmizlə birgə bu düşərgədə istirahət edirik. Xidmətin səviyyəsi bizi qane edir. Qaynatam Fəxrəddin müəllim və həyat yoldaşım Fuad universitetdə çalışırlar. Sakitçilik və rahatçılıq olduğuna görə hər il istirahət üçün bura üstünlük veririk. Uşaqlarımız elə burada böyüyüblər. Təşkil olunmuş bütün yarışlarda iştirak edir. Bu il də oğlum Ceyhun Məmmədov atıcılıq üzrə yer tutdu.

**Ürfanə Nağıyeva (Ağciyər xəstəlikləri kafedrasında baş laborant):**

– "Təbib"də 2-ci ildir istirahət edirik. Şərait ürəyimizcədir. Xidmət də, yeməklər də, istirahət də əladır. Uşaqlarımız da razıdır. Burada yeni dostlar tapıblar. Düşərgədən gedəndən sonra da bir-biriləri ilə əlaqə saxlayırlar.

Bir sözlə, istirahət edənlər çıxışları zamanı xoş və mənalı istirahətə görə universitet rəhbərliyinə, o cümlədən rektor, professor Gəray Gəraybəyliyə, HİK-nin sədri Cahangir Qasımova, düşərgənin rəisi Samir Yaqubova və yeməklərə nəzarət edən Xətai Novruzova təşəkkürlərini bildirdilər.

C.Qasımov əməkdaşların istirahətini diqqətdə saxlayan rektorun tövsiyə və tapşırıqlarını sakinlərə çatdıraraq bildirdi ki, düşərgədə nəzərəçarpacaq yeniliklərin edilməsi planlaşdırılır. İlk növbədə müasir standartlara uyğun yeməkxana kompleksinin inşası, korpusların əsaslı təmiri, müvəqqəti yaşayış şəraitinin yaxşılaşdırılması və xidmətin daha yüksək səviyyədə təşkili nəzərdə tutulub.

Biz də insanlara bir rahatlıq bəxş edən "Təbib" İstirahət Düşərgəsindən ayrılıb, qızmar Bakıya üz tuturuq. Amma əminik ki, onlar paytaxtın qızmar havasının dözülməzliyinin cəngindən qurtularaq düşərgədə mənalı istirahət edə biləcəklər.

**Eldar İSMAYIL,**
**Qabil ABDULLAYEV**

Fotolar Cənnətalı Çingizindir





Mütəxəssis sözü

# Sirrozu artıq sağala bilən xəstəlik kimi qəbul edirik

**İnsanların qaraciyərində problem olanda, onları ən çox sirroza tutulmaları narahat edır. Çünki sirroz zamanı qaraciyərin normal fəaliyyətini təmin edən hüceyrələrin miqdarı artır və qaraciyəri sıradan çıxarır. Əhali arasında sirrozun müalicəsi olmayan və ölümlə nəticələnən bir xəstəlik olması haqqında fikir formalaşıb. Halbuki, peşəkar həkimlər artıq sirrozdan qorxmamağı məsləhət görürlər.**

**ATU-nun Tədris Cərrahiyyə Klinikasının I cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvi, professor Nuru Bayramovla müsahibəmiz məhz bu xəstəliklə bağlıdır.**

**Nuru Bayramov bildirir ki, sirroz qaraciyərin son dövr xəstəliyidir:**

– El arasında buna bərkimə də deyirlər. Tibbi dildə isə "normal qaraciyər toxumasının fibroz və ya birləşdirici toxuma ilə əvəz olunması" adlandırılır. Normal toxuma sıradan çıxır, onun yerini birləşdirici, sərt toxuma tutur. Beləliklə, 2 proses baş verir. Bir tərəfdən qaraciyərin öz toxuması azaldığı üçün funksiyasını yetərli dərəcədə yerinə yetirə bilmir, digər tərəfdən isə bərkidiyi üçün damarlar sıxılır. Nəticədə mədə-bağırsaq sisteminin qan axını problemidurğunluq yaranır ki, buna da portal hipertenziya deyilir.

Portal hipertenziya özünü qarına su yığılması, damar genişlənməsi, dalağın böyüməsi ilə göstərir. Qaraciyərin əksər xroniki uzun sürən xəstəlikləri sirroza gətirib çıxara bilər. Ona görə də bir xəstədə sirroz varsa, həm sirrozun səbəbini tapmaq, həm də onun ağırlıq dərəcəsini axtarmaq lazımdır.

**- Oxucuları maraqlandıran əsas suallardan biri sirrozun sağalıb-sağalmaması ilə bağlıdır. Sirroz sağalan xəstəlikdirmi?**

–Təxminən 10 il bundan əvvəl təbabət bu suala "yox" cavabı verirdi. Hamı əminliklə deyirdi ki, sirroz sağala bilməz. Amma son illərin təcrübəsi göstərir ki, erkən mərhələdə olan sirrozlarda xəstəliyi törədən səbəblər aradan qaldırılsa, xəstəlik müəyyən qədər geriyə dönə bilər, ən azından olduğu mərhələdə dayanar. Artıq sirrozu, xüsusilə də erkən mərhələlərini geriyədönən, düzələn, sağala bilən xəstəlik kimi qəbul etməyə başlamışıq.

**- Sirroz erkən mərhələdə aşkarlanmayıbsa, yaxud səbəbi bəlli deyilsə, onda hansı müalicə aparmaq lazımdır?**

– Bu günə olan ən effektiv müalicə qaraciyərin dəyişdirilməsindən ibarətdir. Əksər hallarda sirroz geriyə dönə bilmir, ağır qaraciyər çatışmazlığına, portal hipertenziyanın ağırlaşmasına gətirib çıxarır. Ona görə xəstəyə diaqnoz qoyulubsa, onda o, böyük ehtimalla qaraciyər transplantasiyasına namizəd olur. Bu o demək deyil ki, biz sirrozlu xəstələrin hamısını transplantasiya etməliyik. Bunun da mərhələsi və zamanı var.

Erkən mərhələdəki sirrozlarda transplantasiyaya ehtiyac yoxdur. Çünki, sirrotik qaraciyər əksər hallarda 8-10-15 il rahatlıqla xəstənin normal yaşamını təmin edə bilər. Ağırlaşmanın ilk əlaməti ortaya çıxarsa, onda transplantasiya gündəmə gəlir. Təbii, biz oturub gözləmirik ki, sirrozlu xəstənin vəziyyəti ağırlaşsın və bundan sonra onu əməliyyat edək. Sirrozlu xəstənin hepatoloji mərkəzdə daimi nəzarətdə olması məsləhətdir. Vəziyyətdən asılı olaraq, belə xəstələr 2-6 aydan bir, heç olmasa ildə bir dəfə yoxlanmalıdırlar. Cərrahiyyənin bir qanunu var. Əməliyyata yaxşı vəziyyətdə gedən xəstə yaxşı çıxar. Əməliyyata çətin, ağır vəziyyətdə girən xəstə əməliyyatdan çətin və ağır şəkildə də çıxar. Ona görə vaxtında transplantasiya etmək lazımdır.



**- Müasir dövrdə hansı orqanların köçürülməsi daha aktualdır?**

–Bu gün bir çox orqanlar uğurlu şəkildə köçürülməkdədir. Bunlarda birincisi böyrək, ikincisi isə qaraciyərdir. Daha sonra klinikalardan asılı olaraq ağciyər, nazik bağırsaq, ürək, mədəaltı vəzin və digər orqanların köçürülməsi də yerinə yetirilir. Bəzi orqanlar var ki, onlardan uşaqlıq, beyin hüceyrəsi, sinir toxumasının köçürülməsi və s. ilkin mərhələdədir. Bunlar hələlik geniş tətbiq olunmayıb.

Son illərdə kompozit toxuma köçürmələri, yəni ətrafların, əlin, ayağın, üzün köçürülmələri geniş yayılıb. Belə halda dəri, əzələ, lazım gələrsə, sümük də bərabər şəkildə köçürülür. Son illərdə mikrocərrahiyyənin inkişafı ilə əlaqədar bu da gündəmə gəlir və tətbiq olunmaqdadır. Həmçinin, klassik olaraq gözün buynuz qişasının köçürülməsi prosesi var ki, xüsusən beyin ölümü donorlarının tətbiq edildiyi ölkələrdə uğurla həyata keçirilir.



**-Orqan transplantasiyası keçirən xəstələr əməliyyatdan sonra daha çox nələrə diqqət etməlidir?**

–Xəstənin birinci diqqət edəcəyi şey dərmanlarını vaxtında qəbul etməsidir. Orqan köçürülməsi zamanı köçürülən orqanın vücudda adaptasiyasının təmin olunması, yaxud orqanizmin onu rədd etməsinin qarşısını almaq üçün immunosupresiv dərmanlardan istifadə olunur. Əksər xəstələrin ömür boyu bu dərmanları qəbul etmələri lazım gəlir. Belə xəstələr mütləq nəzarətdə olmalıdırlar. Bəzi hallarda nəzarətdən yayınsa, problem ortaya çıxa bilər.

İkinci diqqət olunmalı məqam isə həyat tərzidir. Əksər hallarda transplantasiya olmuş xəstələrin həyat tərzi normal insanlardan fərqlənmir. Bu xəstələr 6 ay, 1 il ərzində tam adaptasiya olduqdan sonra rahatlıqla əvvəlki normal iş rejimlərinə, ailə qayğılarına qayıda bilərlər. Ancaq onlar orqanizmi zədələyə biləcək, orqanizmə mənfi təsir göstərə biləcək halların qarşısını almalıdırlar. İnfeksiyalara qarşı çox həssas olurlar. Çünki, onların qəbul etdikləri immunosupresiv dərmanların özləri infeksiyadan başqa, kardiovaskulyar xəstəliklərin, o cümlədən diabetin əmələ gəlməsinə səbəb ola bilir. Bunu da nəzərə alaraq, xəstələr həyat tərzlərindən qidalanmaları, fiziki aktivliklərinə qədər hər bir şeyə diqqət etməlidirlər. İnfeksiyadan qorunmanın birinci yolu əlləri yumaqdır. Bundan başqa, fiziki aktivlikdən geri qalmamalı, gün ərzində açıq havada ən azı 1 saat gəzməlidirlər. Dərman qəbul edən xəstələr günəş işığına qarşı çox həssas olurlar. Ona görə də günəş işığının təsirindən uzaq qalsınlar və bu kimi şeylərə diqqət etsinlər.

**-Orqan bağışlamaq üçün yaş həddi varmı?**

–Bəli, var. Qanunvericiliyə görə 18 yaşından yuxarı sağlam bir şəxs könüllülük əsasında donor ola bilər. Nə bizdə, nə də başqa bir ölkədə könüllü orqan bağışlamağın yuxarı yaş həddi yoxdur. 18 yaşından aşağı canlı donor ola bilməz. Beyin ölümü keçirən xəstələrin qərarını isə ailələri verir. Burada isə yaş həddi yoxdur. Bir meyar var ki, o da donorun sağlam olmasıdır. Çünki donor sağlam olmazsa, donorun özündə olan hər hansı bir xəstəlik köçürülənə keçə bilər.

**- ATU-nun Tədris Cərrahiyyə Klinikasında transplantasiya istiqamətində hansı işlər görülür?**

– Klinikada orqan transplantasiyası ilə əlaqədar xeyli işlər görülüb və bu işlər davam edir. 2013-cü ildə möhtərəm prezidentimiz İlham Əliyev klinikanın açılışını edərkən, xəstəxananın inkişaf prioritetlərindən biri də orqan transplantasiyası oldu və orqan transplantasiya şöbəsi rəsmi olaraq yaradıldı, təsdiq olundu. O dövrdən bu vaxta qədər müəyyən işlər aparılıb: İlkin olaraq, bir neçə mütəxəssisimizi xaricə göndərdik. Orada təkmilləşmə keçdilər. Bu arada biz bu şöbəyə lazım olan bir neçə cihazı aldıq. Türkiyənin İnönü Universitetinin Qaraciyər Transplantasiyası İnstitutu və Bilim Universiteti böyrək transplantasiyası bölümü ilə əlaqə yaratdıq. 2015-ci il avqustun 23-də böyrək transplantasiyası proqramına başladıq və bu günə qədər 5 böyük böyrək transplantasiya əməliyyatı həyata keçirmişik. Bunlar üçün əlavə dializ şöbəsi qurulub. Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikası olaraq Tədris Terapevtik Klinikanın nefroloji şöbəsi ilə birlikdə çalışırıq. Cərrahiyyə Klinikasında artıq transplantasiya şurası fəaliyyət göstərir. Hər həftə toplantılar keçirilir və xəstələr müzakirələr olunur. Artıq qaraciyər transplantasiyasına hazırlıq işləri gedir. Klinikada transplantasiya şöbəsinin tərkibində hepatoloji qrup da fəaliyyət göstərir. Onlar da qaraciyər transplantasiyasına namizəd olan xəstələri dəyərləndirir və lazım olan hazırlıqları yerinə yetirir.

**Ulduz İBRAHİMOVA**

Yeni nəşrlər

# Erməni tarixinin qondarma olduğunu ifşa edən dəyərli kitab

**◆ Tanınmış şair, yazıçı, tarixi romanlar müəllifi, əməkdar jurnalist, «Təbib» qəzetinin baş redaktoru Eldar İsmayıl və istedadlı gənc şair, nasir Gündüz Əhmədlinin birgə müəllifliyi ilə işıq üzü görən "Qərbi Azərbaycan, Göyçə –Erməni işğalı" kitabı zaman-zaman xalqımızın başına gətirilən müsibətlərdən, əzəli və əbədi düşmənlərimizin tarixi saxtakarlıqlarından, insanlığa sığmayan saysız-hesabsız vəhşiliklərindən bəhs edir.**




Müəlliflər diqqəti, xüsusilə, Q.K.Qabrielyanın "Mirvari Sevan" kitabındakı saxtakarlıqların zəngin və təkzibolunmaz faktlar əsasında ifşasına yönəldiblər.

Q.K.Qabrielyan adlı erməni müəllifin Moskvanın "Mısl" nəşriyyatında çap etdirdiyi "Jemçujnıy Sevan" ("Mirvari Sevan") kitabı erməni saxtakarlığının bariz nümunələrindən biridir.

Erməni xislətinə sadiq qalan Qabrielyanın bu əsərini oxuyandan sonra ona cavab vermək zərurəti yaranır.

E.İsmayıl və G.Əhmədli saxtakar erməni yazıçısının yalanlarını bir-bir üzə çıxarır, erməni tarixinin qondarma olduğunu əsaslı faktlarla sübuta yetirirlər.

1936-cı il iyunun 11-də Ermənistan Ali Şurasının "Erivan" şəhərinin Yerevan adlandırılması haqqında fərman verdiyini xatırladan müəlliflər bu qədim türk şəhərinin nə vaxt inşa edilməsinə də tarixi mənbələrlə aydınlıq gətirirlər.

Erməni yazıçısının adı çəkilən kitabında azərbaycanlı əhali haqqında söhbət açılmasa da, ermənilərin hələ də aradan çıxara bilmədikləri toponimlər sanki dil açıb danışır və "biz varıq" deyirlər.

Kitabda kənd, yer-yurd adlarının ilkin mənalarının, əhalinin milli və say tərkibinin tarixi mənbələrə istinadən açıqlanması bu ərazilərdə türk tayfalarının dominantlıq etməsini bir daha təsdiqləyir.

Ermənilərlə 160 illik mücadilənin acı nəticələrini təhlil edən müəlliflər 1987-1988-ci illərdən başlayan hadisələr üzərində ayrıca dayanırlar.

Kitabda ayrı-ayrı zaman kəsiklərində dağıdılmış, hətta xəritədən silinmiş türk kəndləri, İrəvanın və ətrafındakı Azərbaycan torpaqlarının ermənilərə verilməsi barədə tarixi sənədlər də öz əksini tapıb.

1988-ci ilə qədər Ermənistanda olan azərbaycanlı yaşayış məntəqələrinin tam siyahısını kitaba daxil edən müəlliflər o yerlərin, o yurdların tarixi həqiqəti öz canında, çöhrəsində yaşadacaqlarına, əzəli və əbədi sakinləri gələnə kimi gözləyəcəklərinə inanırlar.

Biz də o tarixi günün gələcəyinə inanmaq istərdik. Gərək unutmayaq ki, bütün tarixi qələbələr tarixi həqiqətlərə söykənir. Düşünürük ki, "Qərbi Azərbaycan, Göyçə – Erməni işğalı" kitabı beynəlxalq ictimaiyyətinin diqqətini bu tarixi gerçəkliyə yönləndirmək, Ermənistan adlı bir dövlətin tarixi torpaqlarımız hesabına yarandığını sivil dünyaya çatdırmaq baxımından çox dəyərli bir mənbədir.

«TƏBİB»

Xalq təbabəti

# İsti havada ürəyi qorumaq üçün ZƏRURİ QİDALAR

**İsti havada insanın ürək-damar sistemi güclü yüklənmələrə məruz qalır. Məhz bu səbəbdən isti havada ürək tutmaların, inrarkt və insultun sayı xeyli artır.**



Bəzi məhsullar var ki, bu məhsulların tez-tez qəbulu ürəyə isti havaya tab gətirməyə kömək edir. Bu məhsullar arasında:

**- Ət, qaraciyər.**
Bişmiş mal və toyuq əti və xüsusilə qaraciyər koenzim Q10 maddəsi ilə zəngindir. Bu maddə sağlam ürək və damarlar üçün olduqca vacibdir.

**- Zeytun, küncüt yağı.**
Bu yağlar da koenzim Q10 maddəsi ilə zəngindir.

**- Ərik, ərik qurusu və ərik şirəsi.**
Kaliumla olduqca zəngin olan ərik ürəyin normal fəaliyyətinə kömək edir.

**- Qabıqda bişirilmiş kartof.**
Kartof da kaliumla zəngindir.

**- Pomidor.**
Kalium və likopin maddəsi ilə zəngin olan pomidor ürək üçün ən faydalı məhsullardan biridir.

**- Banan.**
Ürəyin növbəti dostudur. Kaliumla zəngin olan banan ürək əzələsinin fəaliyyətini yaxşılaşdırır.

**- Noxud, mərci, lobya.**
Bu məhsullarda həm kalium, həm də koenzim Q10 maddəsi var.

**- Keşyu, badam, araxis, fındıq, qoz, balqabaq tumları, küncüt.**
Bu məhsullar koenzim Q10 və həmçinin maqneziumla zəngindir. Maqnezium və kalium ürəyin normal fəaliyyəti üçün ən vacib minerallardandır.

**- İspanaq.**
Bu göyərti ürək üçün ən faydalı məhsullardan biri sayılır. İspanağın tərkibində kalium, maqnezium, koenzim Q10 və digər ürək üçün faydalı maddələr var.

# Ürəyi, qaraciyəri və immun sistemini möhkəmləndirən MÜALİCƏVİ DƏMLƏMƏ



**Kasnı bitkisi xalq təbabətində çox geniş istifadə olunur. Kasnı (rus dilində "sikoriy") immun sistemini möhkəmləndirir, yüngül sidik və öd qovucu təsir edir, ürəyin və qaraciyərin fəaliyyətini yaxşılaşdırır, qanda şəkərin səviyyəsini aşağı salır.**

Müalicə məqsədi ilə adətən kasnı bitkisinin kökü istifadə olunur.

Kasnı kökü dəmləməsinin qəhvəyə oxşayan xoş dadı və ətri var. Əvvəllər kasnı kökündən qəhvə əvəzedicisi kimi tez-tez istifadə olunurdu.

Kasnı Azərbaycanın hər yerində bitir. Bitkini özünüz yığıb sağlamlıq üçün istifadə edə bilərsiniz.

Rusiyalı kardioloq Sergey Tereşenko məqalələrinin birində kasnı kökü əsasında hazırlanmış ürək, qaraciyər və immunitet üçün faydalı olan dəmləmənin reseptini təqdim edib.

1 çay qaşığı kasnı kökü 1 stəkan qaynar suda dəmlənilir. Dəmləmə ılıq olanda süzülür, ona 1 çay qaşığı bal və 1 çay qaşığı limon şirəsi əlavə olunur. Bu müalicəvi içkini gündə 2 dəfə yeməkdən 30 dəqiqə əvvəl içmək olar.

# Həzm sistemi üçün ən faydalı 10 BİTKİ

**Mədə-bağırsaq sistemi xəstəlikləri bütün dünyada ən yayılmış xəstəliklərdən biridir.**



Bu xəstəliklərin müalicəsi və profilaktikası məqsədi ilə xalq təbabətində bir çox müalicəvi bitkilərdən istifadə olunur.

Bitkiləri adi çay kimi dəmləyib gün ərzində içmək faydalıdır. Dəmləmələr üçün 2-3 bitkini qarışdırıb istifadə etmək də olar.

**Həzm sistemi üçün ən faydalı müalicəvi bitkilər bunlardır:**

- Cirə
- Kəkliotu
- Çobanyastığı
- Nanə
- Qarağat yarpaqları
- Yağı otu
- Zirə
- Zəncəfil
- Bağayarpağı
- Çaytikanı

# Təzyiqi aşağı salan 10 BİTKİ

**Statistikaya əsasən dünyada 40 yaşdan yuxarı praktik olaraq 50% insan yüksək təzyiqdən əziyyət çəkir.**



Yüksək arterial təzyiq orqanizm üçün çox ziyanlıdır. Bu ürəyin, damarların, böyrəklərin, gözlərin sağlamlığına böyük ziyan vurur, infarkt, insult, böyrək çatışmamazlığı, korluq kimi ağır pozulmalara səbəb olur.

Arterial təzyiqi mütləq normada saxlamaq lazımdır. Bunun üçün xüsusi preparatlar mövcuddur. Belə preparatları xəstəyə həkim təyin etməlidir.

Bəzi bitkilər də təzyiqi aşağı salmağa kömək edə bilər. Lakin nəzərə almaq lazımdır ki, bu bitkiləri yalnız köməkçi vasitə kimi (əsas müalicə ilə parallel olaraq) istifadə etmək olar.

**Təzyiqi salmağa kömək edən bitkilər bunlardır:**

**- Nanə, yemişan, pişikotu, itburnu, qaragilə (meyvəsi və yarpaqları), qarağat yarpaqları, melissa, şüyüd, zirinc (yarpaqları və meyvəsi), mayaotu toxumu.**

Bu bitkilər dəmləmə şəklində qəbul edilir (1 xörək qaşığı quru ot + 200 ml qaynar su). Bir neçə bitkini birlikdə də istifadə etmək olar (məsələn, 1 çay qaşığı nanə + 1 çay qaşığı pişikotu + 200 ml su və s.).

# ELAN

Azərbaycan Tibb Universiteti Məhdud Məsuliyyətli Cəmiyyətinin adı Azərbaycan Tibb Universitetinə və təşkilat-hüquqi forması dövlət ali təhsil müəssisəsinə dəyişdirilərək qurum yenidən təşkil olunur.

# Türkiyədə Zəfər bayramı qeyd olunub

◆ **Türkiyədə Zəfər bayramı və Türk Silahlı Qüvvələri Günü qeyd edilib.**



Böyük zəfərin 94-cü ildönümü münasibətilə avqustun 30-da Ankarada rəsmi mərasim keçirilib. Anıtqəbirdə Fəxri qarovul düzülüb.

Prezident Rəcəb Tayyib Ərdoğan, Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman, Baş nazir Binəli Yıldırım, Türkiyə Silahlı Qüvvələrinin rəhbər şəxsləri, siyasi partiya liderləri, ictimaiyyətin tanınmış simaları Türkiyə dövlətinin banisi Mustafa Kamal Atatürkün məzarını ziyarət ediblər. Atatürkün məzarı önünə əklil qoyulub, ruhuna dualar oxunub.

Anıtqəbirin ziyarətinə insan axını davam edib.

Bayram mərasimləri gün ərzində bütün ölkədə davam edib.

# Alimlər dünyada ən sürətli fləş kartlar yaradıb



◆ **Novosibirsk alimləri tərəfindən hazırlanan gələcəyin məlumat saxlama daşıyıcıları mövcud fləş kartlardan dəfələrlə sürətli olacaq. Belə ki, Rjanov adına Yarımkeçiricilər Fizika İnstitutunun əməkdaşları multiqrafen əsasında innovativ fləş kartlar hazırlayır.**

AZƏRTAC "planet-today.ru" saytına istinadən xəbər verir ki, 1 atom qalınlığında olan qrafen texnologiyanın ən müxtəlif sahələrində, həmçinin informasiyanın saxlanmasında tətbiq edilə bilər. Bir ədəd yaddaş çipi çərçivəsində qrafenin bir neçə qatının birləşdirilməsi məlumatların yüksək sıxlıqla yazılmasına nail olmağa imkan verir ki, bu da məlumatlara istifadənin yüksək sürətini təmin etmir.

Novosibirsk alimləri hesab edirlər ki, multiqrafen gələcəyin fləş kartları üçün mükəmməl əsasdır. Ancaq belə informasiya daşıyıcılarının istehsalı hələ ki planlaşdırılmır, çünki indi alimlər fundamental tədqiqat işləri ilə məşğuldur.

*Etibarsız sayılır*

II MPF-nin IV kurs, 304ᵃ qrup tələbəsi Sabirzadə Samir Azər oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Dünyada nələr olur

# Mürəkkəb əməliyyatları yerinə yetirən robot-cərrah yaradılıb

◆ **Karneqi Mellon Universitetinin professoru Xouvi Çouzetanın rəhbərliyi ilə çalışan mühəndis və həkimlər qrupu tərəfindən qeyri-adi robot-cərrah yaradılıb. Belə ki, robot bədəndə hər hansı kəsik etmədən kifayət qədər mürəkkəb cərrahi əməliyyatlar aparmaq qabiliyyətinə malikdir.**



AZƏRTAC "hi-news.ru" saytına istinadən xəbər verir ki, "The Flex Robotic System" ("TFRC") adlanan yeni ixtira yüksək təsvir ölçüsünə malik kamera və elastik zond formasındadır. İdarəetmə kontrollerin köməyi ilə həyata keçirilir. Robot toxumaları tutmaq, kəsmək üçün müxtəlif alətlərə, həm cərrah bıçağı, həm də qanaxmanı dayandırmaq üçün koaqulyator kimi istifadə edilən lazerə malikdir. Bundan başqa, robot orqanizmdən toxumaları, mayeni çıxarmaq, həmçinin analiz üçün müxtəlif nümunələr götürmək iqtidarındadır. Robot narkoz altında olan pasiyentin ağzı vasitəsilə insan bədəninə nüfuz edir.

İstehsalçılar bildiriblər ki, qurğunun prototipi hələ 2004-cü ildə hazırlanıb və layihənin tam reallaşmasına 10 ildən çox vaxt sərf olunub.

# Alimlər təbiəti insanlardan qorumağın yollarını araşdırırlar

◆ **Yer kürəsinin bioloji zəngin sahələrinin araşdırılması zamanı bəlli olub ki, bu ərazilərin 97 faizinin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb insanlardır.**



AZƏRTAC "VistaNews" saytına istinadla xəbər verir ki, Avstraliya Universitetinin professoru Bill Lorensin sözlərinə görə, planetimizin bioloji zəngin sahələri çoxlu sayda itkilərlə üzləşib. Tədqiqatlar nəticəsində insan faktorunun planetin ən ucqar ərazilərinə belə mənfi təsir göstərdiyi bəlli olub. Ekspertlər bildiriblər ki, dünyanın fauna və florasına ən böyük ziyanı məhz insanlar vurur. Daimi fəaliyyət nəticəsində yer ehtiyatları tükənir, 70 faiz əhalinin çoxluğundan əziyyət çəkən bölgələr ekoloji cəhətdən kirlənir. Ümumiyyətlə, sənayenin inkişafı tədricən dünyanın dəyişməsinə öz təsirini göstərməkdədir.

Kənd təsərrüfatı üçün yararlı torpaqlar ekoloji təzyiqin əmələ gəlməsini müəyyən edən əsas faktorlardan biridir. 1993-cü və 2009-cu illərdə aparılan araşdırmaların nəticələrinin müqayisəsi zamanı aydın olub ki, müddətdə insanların təbiətə mənfi təsiri doqquz faiz artıb. Hazırda elm adamları əsasən Afrikanın və Asiyanın bir neçə bölgələrində nəzarətsiz əhali artımının qarşısının alınması yollarını araşdırırlar.

# "iPhone 7" smartfonunun təqdimatının vaxtı məlum olub

◆ **"Apple" şirkəti sentyabrın 7-də San-Fransiskoda keçiriləcək təqdimata dəvətnamələr göndərib. Tədbirdə ən əsas yenilik yeni "iPhone" modellərinin təqdimatı olacaq. Belə ki, şirkətin 3 smartfon təqdim edəcəyi gözlənilir. Bunlar adı "iPhone 7", onun böyüdülmüş versiyası «iPhone 7 Plus" və "iPhone 7 Pro" smartfonlarıdır. O da ehtimal olunur ki, şirkət "iPhone 7 Plus" qurğusundan imtina edərək bu adda «iPhone 7 Pro" smartfonu istehsal edib.**

AZƏRTAC "4PDA" resursuna istinadən xəbər verir ki, əsas diqqət məhz qabaqcıl "iPhone 7" və onun unikal xüsusiyyətlərinə yönəldiləcək.

Təqdimatda sensorlarının sayı artırılan ikinci nəsil "Apple Watch" "ağıllı" saatlarının nümayiş etdiriləcəyi də gözlənilir.

Bununla yanaşı, yeni kompyuterlərin təqdim ediləcəyi də istisna edilmir, lakin bunun daha çox payızda yeni nəsil "iPad" planşetlərinin nümayiş olunacağı ikinci təqdimatda baş tutacağı ehtimal olunur.




# Rio-de-Janeyro göydələni dünyanın "səkkizinci möcüzəsi"nə namizəddir

◆ **Braziliyanın Rio-de-Janeyro şəhərində Solar City Tower (göydələn-şəlalə) inşa olunub.**



AZƏRTAC "artveranda.ru" saytına istinadla bildirir ki, layihə İsveçrənin məşhur "RAFAA Architecture and Design" memarlıq bürosunun mütəxəssisləri tərəfindən hazırlanıb.

Göydələn dünyanın "səkkizinci möcüzəsi"nə namizədlərdən biri sayılır.

Binanın 105 metr hündürlüyündə kafe və mağazalar yerləşir. Damında isə şəhərin mənzərəsini seyr etmək üçün baxış meydançası var.

# "Facebook"un xəbərlər lentinin təşkili robotlara həvalə edilib



◆ **"Facebook" sosial şəbəkəsinin xəbərlər lentinin təşkili robotlara həvalə olunub.**

AZƏRTAC rambler.ru saytına istinadla xəbər verir ki, sosial şəbəkənin „Populyar" bölməsini avtomatik olaraq alqoritmlər hazırlayacaq.

"Facebook"un rəhbərliyinin sözlərinə görə, bu bölmə aktual və qərəzsiz məlumatları əks etdirəcək. „Trending Topics" lentində ən qızğın müzakirə olunan xəbərlər yerləşdiriləcək, onların qısa təsvirləri göstəriləcək.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@amu.edu.az
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 325